# "70-Cİ AŞIRIM"

***Yaziçi-jurnalist Mircəfər Seyidovun 70 yaşına***

Hər aşırıma sərf olunan vaxt yaxından az görünə bilər. Bu, məsafəylə, zamanla ölçülsə, hər şey adi, bir qədər də rəngsiz, dadsız görünə bilərdi. Bu, arxada qalan ömrün yaşantılarıyla ölçülür. Dönüb ömür aşırımlarına baxanda, gülümsəmək də olar, kədərlənmək də. Ən mənalısı - ən şərəflisi isə dərindən nəfəs alaraq qürürlanmaq, içdən rahatlanmaqdı.... Özü də ola yazıçı ömrü, jurnalist ömrü...

Ötən əsrin 80-ci illərinə az qalırdı. Hərbi xidmətə getməmişdən "Bərdə" qəzetinə (o zamankı "Kommunizm yolu") təqdim elədiyim üç şeirimi yenə də redaksiyaya apardım. Əvvəllər bu şeirlərimə görə neçə dəfə burnuma vurub geri qaytarmışdılar. Hələ bir dəfə də Əməkdar jurnalist, yazıçı, Flora Xəlilzadə qəzetin redaksiyasında təcrübədə olanda bir neçə gəncin şeirləri haqqında ümumi rəy də yazmışdı. Mənim haqqındadanışdığım şeirlərim üçün də yazmışdı ki, "texniki baxımdan hər şey yerindədi, yenilik yoxdu". Bu, ayrı söhbətin mövzusudu bəlkə də.. Yəni, o zaman da bu yazıların bəxti açılmamışdı.

"Şeir şöbəsi" otağına gələndə "t" şəklindəki stolun başında lopabığ, orta boylu, baxışından səmimiyyət tökülən bir oğlan oturmuşdu, yanında da rəmətlik şair Xasay Mehdizadə dayanmışdı. Nəyisə müzakirə edirdilər, təbii ki. Məni görən kimi susdular. Bu baxışların altında sıxıldım, bir az da. Özümü cəmləyib ehtiyatla bir az da irəli gəldim.

Lopabığ oğlan şeirlərimi oxuyub üzümə məhrəmliklə baxıb, "yaxşı yazırsan" - dedi. Rəhmətlik Xasay müəllim məni diqqətlə süzüb - yaxşıdı, amma burnunu dik tutma, oxu! Mütaliəsiz ədəbiyyat yoxdu"- dedi.... O məqamlar yaddaşımın ən işıqlı səhifəsi kimi qlbimdə yaşayır.

Mircəfər müəllim şeirlərimi götürüb stolun üstündəki qalaqlanmış varaqların üstünə qoydu. Az sonra onun müəllifliyi ilə mənim şeirlərimdən nümunələr gətirilən "Dərnək bir məktəbdir" yazısı işıq üzü gördü. Bu mənim ilk uğurum, ilk qələbəm idi. Hər şey burdan başladı. Bu adam -70 yaşı yenicə tamamlanmış, mənim poeziyada ilk yol göstərənim, xeyirxahım - yazıçı, jurnalist Mircəfər Seyidovdur.

Sonra qəzetin nəzdində yaradılmış "Addımlar" ədəbi dərnəyinin üzvü oldum. Mircəfər Seyidov bir neçə il bu dərnəyə rəhbərlik elədi. Bundan az sonra, günlərin birində qəzetin şənbə nömrəsində Rizvan Alıyev imzasıyla "Şimalda ağ gecələr" şeiri dərc olundu. O günün sevincini ifadə eləmək indi mümkün deyil. Bircə onu deyə bilərəm ki, o ömrümün ən bəxtəvər anı idi. Çox keçmədi Mircəfər Seyidov "Bərdə" qəzetinin redaktoru oldu. Və, o uzun illər gənc yazarların inkişafına, qəzetdə şeirlərinin dərcinə doğmalıqla yanaşdı (Eh, bununla bağlı o qədər dadlı, duzlu, yazılası xatirələr var ki!)

Mircəfər müəllim həm də incə zövqlü naşirdi. O, on beş ilə yaxın "Sabah" nəşriyyatının redaktoru olmuş, neçə nəğməli, sehirli qəlbin poetik uçuşuna qol-qanad vermişdir. Ömürlərdə izi olmaqdan dəyərli nə ola bilər?!

Mircəfər Seyidov 1952-ci ildə qədim Bərdə şəhərində ziyalı ailəsində doğmalarını sevindirmişdir. On illik orta məktəb illərindən sonra Bakı Dövlət Universitetinə qəbul olmuş, 1975-ci ildə universitetin filologiya fakültəsini bitirmişdir. Ailəlidir, 2 oğul atasıdır.

Yazıçı, publisist Mircəfər Seyidovun ədəbi aləmdə yaxşı oxucu auditoriyası var. Onun - "Göylərə çəkilmiş ümid" (şeirlər), "Bərdə şəhidləri", "Peyğəmbər", "Kərbəla", "Qəfil oyanış", "Düşüncələr" (esselər) kitabları oxucuların elə bilirəm stolüstü kitablarıdır.

Bu yaxınlarda rastlaşdıq. Üzündə məhrəmanə bir təbəssüm vardı (bu təbəssüm məni ötən əsrin 80-ci illərinə apardı). Birbaşa - "sənin yazılarını izləyirəm, məni sevindirirsən, sağ ol!" - dedi.... Ayrıldıq, tez getdi.... Hələ də cavanlıq eşqi enerjisi vardı. Hərəkətində, danışığında, jestlərində şuxluq vardı. Arxasınca xeyli baxdım. Doğma Bərdədəki günlərə qayıtdım. Məni ömrün əvvəllindəki aşırımların xatirələri çəkdi.

Son söz yerinə: Əziz Mircəfər müəllim! Ömrünüzün, qələminizin ən müdrik, ən püxtə zamanını yaşayırsınız. "70-ci" aşırımdan 75-ci, 80-ci aşırımlar da yaxın görünür. Tanrı bu növbəti ömür aşırımlarını aşmaq üçün Sizə ancaq sağ can və böyük sevgi nəsib eləsin!

***Hörmətlə,***

***Sizin Rizvan NƏSİBOĞLU***